https://doi.org/10.59849/3006-1342.2025.1.113
UOT 902

*Aytən Arif qızı İsayeva*
*AMEA Gəncə Bölməsi*
*Gəncə ş., H.Əliyev pr. 419*
*E-mail: ayten.isayeva.1998@bk.ru*
*https://orcid.org/0009-0002-1922-9342*

# ORTA ƏSRLƏR DÖVRÜNDƏ GƏNCƏDƏ BƏDİİ ŞÜŞƏ SƏNƏTİ

*Məqalədə Gəncədə orta əsrlər dövründə bədii şüşə sənətinin inkişafı və xüsusiyyətləri araşdırılır. Gəncə Azərbaycanın mədəniyyət və sənət mərkəzlərindən biri olaraq bədii şüşə sənəti sahəsində əhəmiyyətli bir yer tutmuşdur. Bu sənət növü əsasən dekorativ və estetik məqsədlərlə istifadə olunmuşdur. Orta əsrlər dövründə, xüsusilə VIII-X əsrlərdə Gəncədə istehsal edilən şüşə məmulatları daha çox məişət və bəzək əşyaları kimi istifadə olunurdu. Bu əşyalar arasında şüşə qablar, piyalələr, qədəhlər, muncuqlar və digər dekorativ predmetlər mövcud idi. Həmin dövrün sənətkarlıq ənənələrini əks etdirən bu şüşə məmulatları həm zəriflik, həm də funksionallıq baxımından diqqət çəkir. Arxeoloji qazıntılarda tapılan çoxsaylı şüşə nümunələri bu dövrün sənətkarlarının yüksək ustalıq qabiliyyətinə malik olduqlarını və şüşə məmulatlarının müxtəlif formalarla və rənglərlə işlənmiş olduğunu göstərir. IX-XIII əsrlərdə şüşə istehsalı daha da inkişaf etmiş, texnoloji yeniliklər və üfürmə üsulunun təkmilləşməsi nəticəsində şüşə məmulatları daha da zənginləşmişdir. XV-XVII əsrlərdə şüşə istehsalı incəsənətə çevrilmiş və yerli əhalinin gündəlik ehtiyaclarını qarşılamağa yönəlmişdir. Bu dövrdə də rəngli şüşə geniş şəkildə istifadə olunmuş, ağ şəffaf şüşədən olan əşyalar isə məişətdə daha nadir idi. Ümumilikdə, Gəncədə bədii şüşə sənəti, həm estetik, həm də funksional baxımdan böyük əhəmiyyət kəsb etmiş və müxtəlif dövrlərdə müxtəlif texnologiyalarla inkişaf etmişdir.*

*Açar sözlər*: Gəncə, şüşə məmulatı, bəzək əşyaları, süfrə qabları, üfürmə texnikası, rəngli şüşə, arxeoloji qazıntılar

## *Giriş*

Azərbaycan qədim dövrlərdən etibarən zəngin mədəni irsə malik olub, müxtəlif sənət sahələrinə ev sahibliyi etmişdir. Bədii şüşə sənəti də bu sahələrdən biridir. Bu sənət əsasən dekorativ və estetik məqsədlər üçün istifadə edilir, həm ənənəvi, həm də innovativ üsullarla inkişaf edir. Bədii şüşə sənətinin ən çox tanınan nümunələri arasında şüşə boyama, şüşə üfürmə, şüşə qablar, vaza və digər dekorativ əşyaların istehsalı yer alır. Bu sənət növü həmçinin şüşənin həkk olunması, rəngləndirilməsi və xüsusi üsullarla formalaşdırılması ilə əlaqələndirilir.

*Əsas hissə*. Azərbaycanın VIII-X əsr tətbiqi sənət növlərinin xarakter qrupunu bədii şüşə məmulatı təşkil edir və bu sahədə Gəncə, xüsusilə önəmli bir mərkəz olmuşdur. Şəffaf və parıldayan, istehsal prosesində plastikliyi ilə seçilən (şüşə kütləsini isti halda istənilən formaya salmaq olur) şüşə materialı bu dövrün sənətkarlığında geniş şəkildə istifadə edilirdi. Qədim Gəncədən tapılan müxtəlif formalı rəngli şüşə məmulatları orta əsr əhalisinin məişətində şüşə qabların geniş yer tutduğunu göstərir [4, s. 33].

Şüşə emalı o dövr üçün çox baha olsa da Gəncə ustalarına yad deyildi. Onlar şüşədən müxtəlif bəzək əşyaları düzəldirdilər. Qazıntılar zamanı nazik və şəffaf şüşə ilə yanaşı bir qədər kobud və qalın şüşədən hazırlanmış nümunələr də aşkar olunmuşdur [6, s. 25]. Bunlara yerli istehsal nümunələri olan müxtəlif təyinatlı və formalı şüşə məmulatları – zərif şüşəli

dərman və ətir qabları, kuzə formalı şüşə qablar, vazalar, piyalələr, qədəhlər, muncuqlar, üzüklər, möhürlər, qolbaqlar və s. göstərmək olar [2, s. 342].

VIII-X əsr bədii şüşə məmulatları Gəncədəki sənətkarlıq ənənələri ilə paralellik təşkil edərək iki əsas kateqoriyaya bölünür: məişət və bəzək predmetləri. Məişət predmetləri həm funksional, həm də estetik baxımdan evdə və gündəlik həyatda istifadə olunur. Onlar müxtəlif formalarda və dizaynlarda istehsal olunur, eyni zamanda yüksək keyfiyyətli və uzun müddət istifadə edilə bilən əşyalardır. Şüşədən hazırlanmış bəzək predmetləri həm dekorativ, həm də sənətkarlıq baxımından xüsusi dəyərə malikdir. Bu bəzək əşyaları incə işçiliklə hazırlanır və rəngarəng dizaynları ilə diqqət çəkir.

VIII-X əsrlərdə şüşə məmulatları arasında əsasən müxtəlif çalarlı yaşıl rəngli nümunələr ön planda olmuşdur. Bununla yanaşı, bəzən sarı, sürməyi və qırmızımtıl qəhvəyi rəngdə olan şüşə qab nümunələrinə də təsadüf edilmişdir [4, s. 33].

IX-XIII əsrlərin ilk rübündə Gəncə şəhərində şüşə məmulatının istehsalının genişlənməsi və keyfiyyətinin artması müşahidə edilmişdir. Bir çox sənət sahələrindən fərqli olaraq şüşə istehsalı sırf şəhər sənətkarlığı idi. Bu sənət sahəsi lazımi xammal ehtiyatı ilə yanaşı yüksək istiliyin əldə edilməsinə imkan verən qurğuların və mürəkkəb texnoloji avadanlıqların qurulmasını, həmçinin sənətkarın yüksək peşəkarlığını tələb edirdi. Şüşə istehsalı üçün əsas xammal olaraq dəmir oksidinin az, natrium və kalsium oksidlərinin yüksək olduğu qum istifadə olunurdu. Orta əsrlərdə aparılan arxeoloji qazıntılar zamanı çox sayda deformasiyaya uğramış qab qırıqları, bəzək əşyaları, istehsal tullantıları, və şüşə məmulatlarının çoxlu fraqmentləri tapılmışdır. Bu dövrün şüşə məmulatı müxtəlif növlərdə olmuşdur. Şüşə məmulatındakı standartlıq isə istehsalın bazar tələblərinə uyğunlaşdırıldığını göstərir [1, s.130].

Arxeoloji qazıntılardan tapılan şüşə məmulatı təyinatına görə süfrə qablarından, ətir və əczaxana qablarından, əl-kimya qablarından, bəzək əşyalarından və pəncərə şüşələrindən ibarətdir.

Orta əsrlərdə şüşə məişətdə ən çox işlədilən qab-qacaq və bəzək əşyalarının hazırlanmasında mühüm rol oynayırdı. Xüsusilə, şüşə süfrə qabları geniş yayılmışdı. Arxeoloji qazıntılarda zərnaxışlı, nazik divarlı süfrə qablarının çoxsaylı fraqmentlərinin tapılması şəhər sakinlərinin məişətində nəfis şüşə qablardan geniş istifadəni sənədləşdirir [3, s. 147].

Süfrə qabları qrafin, kuzə, bərni, piyalə, stəkan, badə və qədəh nümunələri ilə təmsil olunurdu. Bunlardan bərnilərin dizaynı, içəriyə batıq oturacaqları, hündür, şaquli divarları və düz, hamarlanmış ağızları ilə diqqət çəkir. Bu cür qablar, çox vaxt içki və ya qida saxlama və təqdim etmə məqsədilə istifadə olunurdu. Eyni dövrdə piyalələr də geniş yayılmış və çox istifadə olunan süfrə qabları arasında yer alırdı. Piyalələr, ümumiyyətlə alçaq, yarımkürəvi gövdəyə və düz hamar və ya kənarları geri qatlanmış ağıza malik olurdular. Bu dizayn qabların rahat tutularaq içki və ya yemək təqdim edilməsi üçün əlverişli olmasına imkan verirdi. Bəzi piyalələrdə içəriyə batıqlı oturacaq və ya alçaq, diskşəkilli altlıq mövcud idi ki, bu da onların estetik və funksional xüsusiyyətlərini artırırdı. Bəzi arxeoloji qazıntılarda kobud hazırlanmış şüşə qablara da rast gəlinir. Bu cür qabların şüşəsindəki hava boşluqları onların istehsalının aşağı səviyyədə olduğunu göstərir [1].

XI-XIII əsrin əvvəllərində şüşə istehsalı keramika ilə yanaşı əhəmiyyətli dərəcədə artmışdır. Arxeoloji qazıntılardan tapılan şüşə məmulatı nümunələri göstərir ki, bu dövrün qabları və bəzək əşyaları forma və naxış baxımından daha müxtəlifdir. Yeni texnoloji inkişaflar, xüsusilə üfürmə üsulunun təkmilləşməsi, rəngli şüşənin geniş tətbiqi və yeni növ naxışların yaradılması bu dövrün şüşə məmulatını xarakterizə edir. Bir rəngdə olan qaba başqa rəngli şüşə kütləsindən nazik və qalın naxışlar çəkilməsi, eşmə və dişli yapışdırma bəzəklərinin əlavə edilməsi, möhürdən istifadə, yazı və inkrustasiyanın tətbiqi də bu dövrün

xüsusiyyətlərindəndir [2, s.371]. Arxeoloji qazıntılardan əldə olunan şüşə məmulatında bədii zövqün geniş şəkildə təzahür etdiyini müşahidə etmək mümkündür. Bu, yalnız onların yığcam və aydın formaya malik olmalarında, həmçinin gözəlliyində, rənglərinin müxtəlifliyi və parlaqlığında deyil, həm də naxışlarında özünü göstərir. Biz burada həndəsi kəsmələr, qabarıq və batıq naxışlar, dəniz dalğası motivi, ilan və sarğı şəklində olan yapışdırmalar, müxtəlif rənglərin mozaikası və digər bəzəklərlə rastlaşırıq. Yapışdırma naxışı olan qablar Gəncədən yaxşı məlumdur. Bu naxışlar, adətən, qabların boğazı və çiyin hissəsinə tutqun-şabalıdı, sarı və firuzəyi rəngli şüşədən ip şəklində düzəldilərək vurulmuşdur. Bəzi hallarda isə bu bəzəklər ilan şəklində qabın boğazına dolandırılırdı [1, s.154].

Bu dövrdə Azərbaycanda, o cümlədən Gəncədə şüşə qablarla yanaşı bəzək əşyaları - bilərzik, muncuq, üzük və üzük qaşlarının istehsalı artmışdır. Arxeoloji qazıntılardan bu artım açıqca görünür. Müxtəlif rəngli şüşə kütlələrindən (sarı, qırmızı, göy və s.) istifadə edərək rəngarəng bilərziklər hazırlanması dövrün texnoloji yeniliyi hesab edilə bilər [2, s.371]. Bilərziklərin hazırlanma üsulu olduqca sadə idi. Onlar əldə dartma, burma və qəlibdə hazırlanma metodları ilə istehsal olunurdu. Əldə hazırlanan qolbaqlar üçün 1200 dərəcə istilik yetərli idi. Qəlibdə hazırlananda isə daha maye ərinti istifadə edilirdi [7, s.85]. O dövrdə bəzək əşyalarının rəng dekoru xeyli çoxalır. Şəffaf, mavi, göy, çəhrayı, sarı və qarışıq rəngli bəzəklərin sayı artır. Şar, silindr və badam formasında olan muncuqlarla yanaşı, tilli, buğumlu və dilimli muncuqlardan geniş istifadə olunur. Gözmuncuqları hazırlanarkən şüşənin üzərinə "gözlər" oyuq şəkildə işlənmiş və həmin oyuqlar başqa rəngli şüşə kütləsi ilə doldurulmuşdur [2, s.371-372]. Muncuq və qolbaqlardan əlavə orta əsr abidələrində digər bəzək əşyalarına, xüsusilə şüşə üzüklərə də rast gəlinir. Bu üzüklər formalarına görə üç kateqoriyaya ayrılır: hamar formalı üzüklər, qaşlı üzüklər və möhür üzüklər [7, s.88-89].

Şüşə məmulatının istehsalında bir sıra texniki üsullardan – sərbəst üfürmə, qəlibdə üfürmə, tökmə, dartma, burma, qaynaqetmə, cilalama və s. istifadə edilmişdir [3, s.147].

Arxeoloji qazıntılardan əldə olunan qabların bir qismi üfürmə üsulu ilə hazırlanmışdır. Üfürmə üsulu ilə əsasən girdə formalı, içi boş şüşələri: bankaları, butulkaları, lampa şüşələrini, stəkanları və s. hazırlayırlar. Bu üsulda uzun dəmir borularla kürənin deşiklərindən qatılaşmış, qırmızı rəngdə və çox yüksək temperaturda olan şüşənin bir hissəsi az miqdarda götürülür. Sonra bu şüşə çuqun, bürünc və ya odadavamlı gildən hazırlanmış formaların içərisinə yerləşdirilir və borunun ağız hissəsi ilə üfürülür. Bu zaman boru vasitəsilə daxil olan hava maye şüşəni genişləndirərək onu qəlibin formasına salır. Qəliblər avtomatik şəkildə açılır və şüşə oradan çıxarılır, sonra isə boğazına azca su vurulmaqla borudan ayrılır. Bu cür formaya salınmış şüşənin boğaz hissəsi daha sonra yenidən şəkil verilərək formalaşdırılır [8, s.8].

Şüşə emalatxanalarında qədim dövrlərdən bəri məlum olan tökmə üsulu da tətbiq edilirdi. Bu üsulla güzgü, masaüstü şüşələri, boşqablar, nəlbəkilər və digər əşyalar hazırlanırdı. Güzgü şüşələrini istehsal edərkən, yanmaz materialdan hazırlanan masaların kənarına çərçivə qoyulurdu. Bu çərçivələrin hündürlüyü şüşə təbəqəsinin qalınlığına uyğun olurdu. Bir qədər maye şüşə çərçivəyə töküldükdə, istənilən qalınlıqda şüşə təbəqəsi alınır. Boşqab və digər əşyalar da duru şüşəni tökmə üsulu ilə formaya salınırdı [8].

Pəncərə şüşələrinin istehsalı da dövrün mühüm nailiyyətlərindən hesab edilirdi. Diskşəkilli və müstəvi şüşələrin hazırlanması yerli ustalardan yüksək peşəkarlıq tələb edirdi. Pəncərə şüşələrinin hazırlanmasında üfürmə texnikası tətbiq olunmuşdur [3, s.148-149]. Bu texnika şüşənin əridildikdən sonra müəyyən bir forma verilməsi üçün üfürülməsi prinsiplərinə əsaslanır. Sənətkarlar ərimiş şüşəni boru vasitəsilə üfürərək həm nazik, həm də geniş vərəqlər hazırlaya bilirdilər. Üfürmə ilə hazırlanan şüşə sərt və şəffaf olurdu ki, bu da onun pəncərə kimi istifadəsini təmin edirdi.

XV-XVII əsrlərdə Azərbaycanda şüşə istehsalı incəsənətə əsaslanan bir fəaliyyətə çevrilmiş və yerli əhalinin gündəlik ehtiyaclarını qarşılamağa yönəlmişdi. Şamaxı, Gəncə, Naxçıvan, Tovuz və digər şəhərlərdəki şüşə sənətkarları ənənəvi olaraq gülabdanlar, şüşədən neft lampaları, müxtəlif qəndqabılar, duzqabılar, şərbət qabları, böyük butulkalar və başqa qablar hazırlayırdılar. Əvvəlki dövrlərdə olduğu kimi, məmulatların istehsalında rəngli şüşədən geniş şəkildə istifadə olunur, rəngsiz şüşədən olan əşyalar isə məişətdə daha az yayılırdı. Yalnız şərbət üçün nəzərdə tutulan armudşəkilli xüsusi küpələr və qrafinlər (bunlar Gəncə ustalarının işidir) ağ, şəffaf şüşədən istehsl edilirdi [5].

*Nəticə*

Orta əsrlər dövründə Gəncədə bədii şüşə sənəti Azərbaycanın mədəni və sənətkarlıq irsinin mühüm bir hissəsi olaraq inkişaf etmişdir. Şüşə istehsalı yüksək sənətkarlıq və texniki biliklər tələb edən bir sahə olaraq, Gəncədə müxtəlif növ məişət və bəzək əşyalarının istehsalını əhatə etmişdir. Arxeoloji qazıntılarda tapılan şüşə məmulatları, dövrün estetik və texnoloji inkişaflarını, eləcə də şəhər sakinlərinin həyat tərzini əks etdirir. Şüşə sənətinin inkişafı, həmçinin müxtəlif texniki üsulların tətbiqi və yeni bəzək motivlərinin istifadəsi ilə müşayiət olunmuşdur. Gəncə ustaları, xüsusən rəngli şüşə məmulatları ilə dövrün yüksək sənətkarlıq ənənələrini yaşatmış və bu sənət növü Azərbaycanın mədəni irsinin zənginləşməsinə böyük töhfə vermişdir.

ƏDƏBİYYAT


1. Azərbycan arxeologiyası orta əsrlər. Altı cilddə, VI cild. Bakı, “Şərq-Qərb” 2008. 632 s.
2. Azərbaycan tarixi. Yeddi cilddə, II cild (III-XIII əsrin I rübü). Bakı, Elm, 2007. 608 s. + 24 s. illüst.
3. Dostiyev T. Azərbaycanın orta əsr şəhərləri (IX–XIII əsrin əvvəlləri). Dərs vəsaiti, Bakı, “Elm və təhsil”, 2016. 200 s.
4. Əfəndi R. Azərbaycan incəsənəti. Bakı, “Şərq-Qərb”, 2007. 160 s. + 112 s. (illüst.)
5. https://intangible.az/front/az/aboutExample/21860
6. M.M.Altman, Gəncə şəhərinin tarixi oçerki, Tovuz mətbəəsi, 1991, 63 s.
7. Rəcəbova B. Azərbaycanın orta əsr qadın bəzəkləri (IV-XIII əsrlər). Bakı, Elm, 2000
8. Şükürlü A. Məişət şüşə qablarının funksional erqonomik və estetik göstəricilərinin tədqiqi mövzusunda. Magistr dissertasiyası. Bakı, 2018


УДК 902

*Айтен Ариф оглу Исаева*
*Гянджинское Отделение НАНА*

В ЭПОХУ СРЕДНИХ ВЕКОВ ХУДОЖЕСТВЕННОЕ СТЕКЛО В ГЯНДЖА
*РЕЗЮМЕ*

*Ключевые слова:* Гянджа, стеклянные изделия, декоративные предметы, посуда, техника выдувания, цветное стекло, археологические раскопки.

В статье рассматривается развитие и особенности художественного стекольного искусства в Гянджа в средневековый период. Гянджа как один из культурных и художественных центров Азербайджана занимала важное место в области художественного стекольного искусства. Этот вид искусства использовался преимущественно для декоративных и эстетических целей. В средние века, особенно в VIII-X веках, стеклянные изделия, производившиеся в Гянджа использовались в

основном в быту и как украшения. Среди этих предметов были стеклянные сосуды, чаши, бокалы, бусины и другие декоративные изделия. Эти стеклянные изделия, отражающие ремесленные традиции того времени, привлекали внимание как своей изысканностью, так и функциональностью. Множество стеклянных образцов, найденных в археологических раскопках, показывает, что мастера того времени обладали высокой степенью мастерства, а стеклянные изделия были выполнены в различных формах и цветах. В IX-XIII веках производство стекла развивалось еще больше, благодаря технологическим нововведениям и совершенствованию метода выдувания стекла, изделия стали более разнообразными. В XV-XVII веках стекольное производство превратилось в искусство направленное на удовлетворение повседневных нужд местного населения. В этот период также широко использовалось цветное стекло, в то время как изделия из белого прозрачного стекла были более редкими в быту. В целом, художественное стекольное искусство Гянджа имело большое значение как с эстетической, так и с функциональной точки зрения и развивалось в различные исторические периоды с использованием различных технологий.

UDC 902

*Aytan Arif Isaeva*
*Ganja Branch of ANAS*

GLASS ART IN GANJA DURİNG THE MİDDLE AGES
*SUMMARY*

*Key words*: Ganja, glass artifacts, decorative items, tableware, blowing technique, colored glass, archaeological excavations

The article deals with the development and characteristics of artistic glassmaking in Ganja during the medieval period. As one of Azerbaijan's cultural and artistic centers, Ganja held an important place in the field of glass art. This craft was primarily used for decorative and aesthetic purposes. During the medieval period, particularly in the $8^{th}$-$10^{th}$ centuries, glassware produced in Ganja was mostly used for household and decorative items. These items included glass vessels, bowls, goblets, beads, and other decorative objects. These glass items, reflecting the craftsmanship traditions of the time, stand out for both their delicacy and functionality. Numerous glass examples found during archaeological excavations show that the artisans of that period possessed high skill levels, and the glass products were crafted in various shapes and colors. In the $9^{th}$-$13^{th}$ centuries, glass production further developed, and as a result of technological innovations and improvements in the blowing technique, glass items became even more enriched. In the $15^{th}$-$17^{th}$ centuries, glass production turned into an art form, while still meeting the daily needs of the local population. During this period, colored glass was widely used, while items made of transparent white glass were rarer in everyday life. Overall, glass art in Ganja held significant importance both aesthetically and functionally, and it evolved through various technologies over different periods.

***Daxil oldu: 20.02.2025-ci il***